**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ARZU NİZAMİ qızı ZEYNALOVA**

# QARABAĞIN SÜJETLİ XALÇALARI

**İxtisas: 6218.01 – "Dekorativ-tətbiqi sənət"**

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yeinə yetirilmişdir.

**Elmi rəhbər:** **Kübra Muxtar qızı Əliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru,
professor, Əməkdar incəsənət xadimi

**Rəsmi opponentlər:** **Röya Seyfəddin qızı Tağıyeva**
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Şirin Yaşar qızı Məlikova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu**

Dissertasiyanın müdafiəsi **2018-ci il "05"fevral** saat **11:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, H.Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **"05_"yanvar 2018-ci ildə** göndərilmişdir.

**FD.02.191 Dissertasiya**
**Şurasının elmi katibi:**

**X.Z. Əsgərova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# TƏTQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qarabağ bölgəsi xalçaçılığın inkişafı baxımından digər xalçaçılıq məktəblərindən öz kompozisiya, süjet və canlı rəng ahənginin zənginliyi ilə seçilir. Bu bölgədə Azərbaycanın digər ərazilərindən daha artıq siyasi ixtişaşların, döyüşlərin, münaqişələrin baş verməsinə baxmayaraq, xalçaçılıq hər zaman durmadan inkişaf etmişdir. Təkcə bunu demək kifayətdir ki, Qarabağda digər bölgələrdən fərqli olaraq xalçaların kompozisiyalarının sayı daha çoxdur.

Azərbaycanın heç bir bölgəsində Qarabağda olduğu qədər bir-birindən fərqli xalça kompozisiyalarına, müxtəlif naxışlara malik xovsuz xalçalara rast gəlinməyib. Sadə xalq təfəkkürünün məhsulu olan süjetli xalçalar demək olar ki, tək öz sayına görə deyil, həm də təsvirlərin, süjetlərin müxtəlifliyinə görə seçilir ki, bu da həmin bölgədə xalça sənətinə mifologiyanın, folklor sənətinin xalq arasında olan adət-ənənələrini özündə əks olunması ilə bərabər əsrlər boyu burada baş verən tarixi hadisələri, həmçinin qonşu ölkələrlə bərabər Avropa ilə sıx əlaqələrin olduğunu sübuta yetirir. Qarabağ Avropa, Rusiya və Şərqin bir çox ölkələri ilə fəal mədəni əlaqələr qurmuş bir bölgə olmuşdur.

Qarabağda əsrlər boyu insanlar evləri bəzəmək üçün müxtəlif ölçülü və müxtəlif naxışlı xalı-xalçalardan ənənəvi olaraq daim istifadə etmişlər. Bu xalılardan əsasən qış zamanı döşəməni örtmək üçün istifadə edilirdi. XVIII-XIX əsrlərdə Qarabağın varlı insanların evlərinin divarları və tavanları müxtəlif rəsmlərlə bəzədilirdi. Zaman keçdikcə Qarabağın bir çox kəndlərində divarları xalça ilə örtmək adəti meydana gəlmiş, elə o zamandan Qarabağ xalçaçıları tarixi şəxsiyyətlərin, adi insanların, heyvanların və yaxud, bağ-bağçanın rəsmlərini, toxucuların əllərinə düşən kitab, qəzet və jurnallardan istifadə edərək onları xalçalara köçürmüş və bununla da Qarabağ xalçalarının yeni növü, divar xalçaları meydana gəlmişdir. Bu xalçalar bir növ divar pannolarını və ya divar rəsmlərini əvəz etmişlər.

Dünya muzeylərində saxlanılan ən qədim süjetli xalçalar içərisində məhz Qarabağ xalçaları üstünlük təşkil edir. Qarabağda toxunmuş, üzərində əjdaha və simurq quşunun döyüş səhnəsi əks edilmiş bir xalça hazırda Berlinin Perqamon Muzeyində saxlanılır. Bu xalça XV əsrə aid olub, Qarabağın (yun, xovlu xalça) ilk

süjetli xalçalardan hesab edilir[1] . Eyni zamanda bu bölgədə vaxtı ilə istehsal edilmiş "Şəddə", "Vərni", "Atlı-itli", "Rüstəm və Söhrab" adlı xalçalar da mürəkkəb kompozisiyası, əlvan rəng seçimi ilə diqqəti cəlb etmişlər.

Müasir dövrdə də Qarabağın bu gün azərbaycanlılar yaşadığı ərazisində, o cümlədən Bərdə, Ağcabədi, Yevlax, Tərtər həm də Bakıda yaşayan insanların şəxsi istifadəsində saxlanılmış Qarabağ xalça nümunələri sübut edir ki, onlar həm çeşid bolluğu, həm də süjet rəngarəngliyi ilə seçilirlər. Lakin, Qarabağın süjetli xalçaları, əsasən də hazırda xalqın istifadəsində olan xalçalar bugünə kimi tam şəkildə tədqiqə cəlb olunmayıb. Bu baxımdan Qarabağın süjetli xalça nümunələrinin tədqiqi və təhlili aktual mövzu kimi ortalığa qoyulur.

**Problemin tədqiq olunma dərəcəsi.** Uzun illər Azərbaycanın bütün ərazisini başdan-ayağa gəzib, xalça sənətinin toxunma mərkəzlərini öyrənən görkəmli xalçaçı-rəssam, xalça tədqiqatçısı Lətif Kərimov Qarabağın özünü ayrılıqda böyük bir növ kimi qiymətləndirib[2].

I qrup "Bərdə" adlanır. Buraya Bərdə və onun ətrafında toxunan ornamental xovlu xalçaları daxil edir ki, bunlar da aşağıdakılardır:

a) L.Kərimov bu qrupa "Bərdə", "Xanqərvənd", "Aran", "Qoca", "Çələbi", "Buynuz", "Dəryanur", "Açma-yumma", "Şabalıdbuta", "Balıq" adlı xalçaları daxil edir. Həmçinin o, öz kitabında qocaman sənətkarların Bərdədə toxunan bu xalçaların hamısına aran xalçası dediyini də qeyd edir.

b) L.Kərimov tərəfindən Ağcabədi rayonu və onun ətraf kəndlərində toxunan xovlu və xovsuz xalçalar da I qrupa əlavə edilir. O, Ağcabədinin ən məşhur xalçaları kimi "Lənbəran", "Qarabağ" və "Xantirmə" xalçalarının adını çəkir.

II qrup Şuşa qrupudur. L.Kərimov bu qrupa "Malıbəyli", "Ləmpə", "Bağçadagüllər", "Bulud", "Saxsıdagüllər", "Nəlbəkigül", "Gülyaylıq", "Muncuq" və "Zərməxmər" xalçalarını daxil edir. O, öz kitabında xüsusi olaraq qeyd edir ki, XVIII əsrin ikinci yarısından sonra Qarabağ xalça məntəqəsi Şuşada mərkəzləşir. Burada Bərdə xalçaları daha artıq inkişaf etməyə başlayır.

---

[1] Алиева К. Тебризская Ковровая Школа XVI-XVII в. Баку: "ELM", 1999. s.90,95
[2] Kərimov L. Azərbaycan xalçası I cild. Kakı: Leninqrad-1961.s.4.

III qrup Cəbrayıl qrupudur ki, bu qrupa “Xanlıq”, “Qaraqoyunlu”, “Qubadlı”, “Kürd”, “Qasımuşağı”, “Muğan” və “Talış” adlı xovlu xalçalar, palazlar və kilimlər daxildir[3].

Sənətşünas Nəcibə Abdullayevanın “Azərbaycanın xalçaçılıq sənəti” adlı kitabında Azərbaycan xalça sənətinin inkişaf prosesini ardıcıllıqla izləyir, xalq ustalarının toxuduqları və peşəkar rəssamların ərsəyə gətirdiyi xalçalar barədə geniş məlumat verir. Kitabda xalçaların kompozisiya quruluşu və naxışların semantikası araşdırılır. N.Abdullayeva xalçaların texniki və sxematik göstəricilərindən əlavə onların bədii xüsusiyyətlərini də önə çəkir. Müəllif tədqiqatını xalça sənətində ayrı-ayrı bölgələr üzrə davam etdirib. Araşdırma zamanı ornamental xalçalarla yanaşı süjetli xalçalara da müraciət olunub[4].

Sənətşünas Anaxanım Əliyevanın “XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid Azərbaycanın xovlu xalçaları” adlı kitabında əsasən Azərbaycanın bütün bölgələrinin ornamental xovlu xalçalarından bəhs edərkən, eyni zamanda bir neçə süjetli xalçaların, o cümlədən Qarabağın “Rüstəm və Söhrab”, “Atlı-itli” və “Yusif və Züleyxa” kimi süjetli xalçaları haqqında da öz fikrini bildirib. Ayrıca olaraq o, öz kitabında Qarabağ xalçaları adlı hissədə Qarabağın ayrı-ayrı xovlu xalçalarının bədii xüsusiyyətlərini şərh etməklə bərabər, eyni zamanda “Dəst-xəli-gəbə” xalıları haqqında da məlumat verir. Bundan əlavə XIX əsrin axırı, XX əsrin əvvəli Şuşa xalçaları haqqında danışarkən, bu xalçaların son dövrlərdə süni boyaqlarla boyanması ilə Qarabağ xalçalarının keyfiyyətini nə qədər aşağı düşdüyünü vurğulayır. Eyni zamanda Qarabağda XIX əsrin əvvəllərində Molla Nəsrəddin jurnalının bəzi motivlərinin xalça sənətində əks olunması, “Yusif və Züleyxa”, “Rüstəm və Söhrab” adlı xalçaların da toxunması haqqında məlumat verir. Ən çox Qarabağda məşhur olan “İtli-pişikli”, “Atlı-itli” xalçalarının da bədii keyfiyyətlərini, onların süjet zənginliyini araşdıraraq öz fikirlərini şərh edir[5] .

---

[3] Kərimov L. Azərbaycan xalçası I cild. Bakı: Leninqrad-1961. s.14-15
[4] Абдуллаева Н. Ковровое Искуство Азербайджана. Баку: Елм»1971. s.11,20.
[5] Алиева А. Ворсовые ковры Азербайджана XIX-начала XX века. Баку: Елм-1987. s.88-89.

Məlum olduğu kimi akademik Rasim Əfəndiyev Azərbaycan dekorativ-tətbiqi sənətin bütün növlərini dərindən araşdırmış və xalça sənəti haqqında elmi məlumat vermişdir.

Rasim Əfəndiyevin "Azərbaycan xalq sənəti" adlı kitabının XIX-XX əsrin əvvəllərinə aid "Xalq sənəti" bölməsində "Vərni" kimi təsvirli xalçaların həm rəsmini vermiş, həm də onlar barədə məlumat vermişdir. Burada xalça bölməsində "Atlı-itli", "İtli-pişikli", "Üç padşah" ( "Üç padşah" adlı xalçalar R.Tağıyevanın "Azərbaycanın süjetli xalçaları" adlı kitabında "Kef çəkən əyanlar" adı ilə qeyd olunub[6]) kimi xalçaları da vermişdir[7].

Xalça tədqiqatçısı, sənətşünaslıq üzrə elmlər doktoru, professor Röya Tağıyevanın "Azərbaycanın süjetli xalçaları" adlı monoqrafiyası Azərbaycanın bütün bölgələrinə aid süjetli xalçalarının toplanaraq, tədqiq edilməsi baxımından diqqətə layiqdir. Üç dildə olan bu kitabda tədqiqatçı Azərbaycanın bütün bölgələrində, o cümlədən Təbriz, Şirvan və Qarabağ bölgələrində əsrlər boyu toxunmuş süjetli xalçaların təsnifatını vermiş, süjetlərin hansı ədəbi əsərə həsr olunmuş təsvirə aid olduğunu təyin etmişdir. O, eyni zamanda klassiklərin əsərlərindən gələn həmin mövzuların xalça sənətində istifadə edilməsinin əsas səbəblərini aydınlaşdırmışdır. Bu mövzuların bədii ədəbiyyatla, xalq ənənələri və tarixi faktlarla əlaqədar olduğunu qeyd etmişdir[8].

Azərbaycan xalçalarının tədqiqi ilə məşğul olan Kubra Əliyeva xalçaların tədqiq olunma sərhədlərinin daha da geniş olduğunu sübut etdi. Azərbaycan xalça növlərinin, kompozisiyalarının çoxluğunu və hər növdən olan yüzlərlə xalçaların mövcudluğunu nəzərə alaraq, bu xalçaların hər birinin ayrı-ayrı məktəblərə və onların arasında yerləşən hər iki məktəbin bədii xüsusiyyətlərindən qidalanan yarım məktəblərin mövcudluğu barədə öz yeni mülahizəsini işləyib, hazırladı[9].

Azərbaycan ikinci dəfə müstəqillik qazandığı illərdən başlayaraq Azərbaycanda xalça sənətinin araşdırılması ilə məşğul olan Vidadi Muradov son illərdə işlədiyi və

---

[6] Тагиева Р. Сюжетные Ковры Азербайджана. Баку: Ишыг -1988. s.139.
[7] Əfəndiyev R. Azərbaycan Xalq Sənəti. Bakı: İşıq-1984. s.130.
[8] Тагиева Р. Сюжетные Ковры Азербайджана. Баку: Ишыг -1988. s.12, 30, 55.
[9] Алиева К. Безворсвые Ковры Азербайджана. Баку: "Ишыг", 1988. s.25

Qarabağa aid olan "Azərbaycan xalçaları Qarabağ qrupu" adlı kitabıdır. Artıq bu kitabda müəllif özünün xalçaçılıq sənətindəki yeni mülahizələrini ortaya qoyur. O, Lətif Kərimovun dörd xalçaçılıq növündən və Kübra Əliyevanın xalçaçılıq məktəbi variantından imtina edərək öz tədqiqatlarında onları qrup halında araşdırmağa başladı. "Azər-ilmə" MMC-nin "Sehrli ilmələr" qalereyasında saxlanılan nadir Qarabağ xalçalarından ibarət Qarabağ xalçaları haqqında ayrıca monoqrafiya, bu günə qədər Azərbaycanda çap edilmiş ilk nümunələrindən hesab edilə bilər. Bu kitabın nəşr olunması Azərbaycan xalça sənətinin kiçik qrup halında olsa belə, ən əzəmətli növünün və yaxud məktəbinin misilsiz nümunələrinin rəsmlərinin özündə əks olunması ilə bərabər, eyni zamanda müəllifin şəxsi qalereyasında saxlanılan və Qarabağın türk-azərbaycanlı toxucuları tərəfindən toxunmuş nümunələrini özündə əks etdirir[10].

Beləliklə, Azərbaycan xalça sənətinin ilk tədqiqatçısı olan L.Kərimovdan tutmuş bugünə qədər Azərbaycan xalçaları haqqında yazılan tədqiqat işlərində əsasən xovsuz və xovlu ornamental xalçalar haqqında geniş məlumat verilməklə bərabər, bir neçə süjetli xalçaların da, o cümlədən, "Vərni", "Atlı-itli", "Rüstəm və Söhrab" bir də "Şəddə"lər haqqında olan məlumatlardan başqa süjetli xalçalar haqqına geniş məlumat verilmir.

Son dövrlərdə Vidadi Muradovun "Qarabağ bölgəsinin xalçaçılıq tarixi" adlı kitabında xalçalar artıq qrup halında deyil, bölgə halında tədqiq olunur və bölgələrə də Ağcabədi, Ağdam, Bərdə, Ağdərə, Beyləqan, Fizuli, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Tərtər, Xocavənd, Xocalı və Zəngilan kimi yaşayış məntəqələrində toxunan xovsuz və xovlu xalçalardan bəhs edilir. Eyni zamanda Qarabağ bölgəsinin xalçaçılıq məntəqələri adlı sxemdə də bu xalçaların toxunduğu kəndlərin adları qeyd olunur. Yəni, xalçalar L.Kərimovun vaxtı ilə qeyd etdiyi adlarla deyil, məs., "Malıbəyli", "Açma-yumma", "Ləmpə" adları kimi yazılmışdı, əksinə onların toxunduğu kəndlərin adı ilə qeyd olunur. Bu kitabda vaxtı ilə erməni təcavüzkarları tərəfindən

[10] Muradov V. Azərbaycan xalçaları Qarabağ qrupu. BAKI: "ELM"- 2010. s.28.

zəbt edilmiş Azərbaycan yaşayış məntəqələrinin adlarının çəkilməsi və qeyd olunması olduqca böyük əhəmiyyət kəsb edir[11].

Gülzadə Abdulova tərəfindən 2013-cü ildə tərtib edilmiş "Qarabağ xalçaları" adlı kataloqda Azərbaycan Milli Tarix Muzeyində yerləşən xovsuz və xovlu Qarabağ xalçaları, o cümlədən bir neçə süjetli xalçalar da öz əksini tapmışdır. Kataloqda "Möhtərəm Ənvər bəy Əfəndi", "Cənab Şövkət Paşa Həzrətləri", "Cənab Yusif İzzətdin", "Sultan Məhəmməd Rəşid xan Xamız həzrətləri", "Atlı-itli, "Rüstəm və Söhrab", "Balama qurban" kimi süjetli xalçaların da adları çəkilir[12].

Yuxarıdakı qeydlərdən aydın olur ki, xalça mütəxəssisləri tədqiqatlarını Azərbaycanın, o cümlədən Qarabağın xovlu-ornamental xalçalarına yönəltmişlər. O ki, qaldı Qarabağın süjetli xalçalarına, yuxarıda adları çəkilən tədqiqatçılar, onların ilkin həddən artıq yayılmış bir neçəsinə – "Atlı-itli", "Rüstəm Söhrab", "Kef çəkən əyanlar" və s. diqqət yetirmiş, xüsusən muzeylərdə olan nümunələri tədqiq etmişlər. Beləliklə, Azərbaycanın müxtəlif bölgələrində yerli əhalidə, o cümlədən qaçqın həyatı yaşayan ailələrdə qorunub-saxlanılan bir çox süjetli xalça nümunələri tədqiqatdan kənar qalmışdır. Bu məmulatların tədqiqi və sənətşünaslıq baxımından təhlili aktual məsələ olaraq tədqiqatın qarşısında durmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan xalça sənəti sahəsində Azərbaycan xalçaçılıq regionlarında mühüm sənətkarlıq mərkəzi kimi Qarabağın xalçaçılıq sənətində süjetli mövzularda işlənmiş xalçaları toplayıb, onları sistemli şəkildə təhlil etməkdən ibarətdir. Bununla da bu sahədə aparılmış araşdırmalar nəticəsində Qarabağın yeni süjetli xalça kompozisiyalarının adını təyin edilib.

Qeyd edilən məqsədə nail olmaq üçün aşağıda sadalanan məsələlərin həlli nəzərdə tutulub:

- Qarabağda əsrlər boyu ornamental xalçalarla bərabər süjetli xalçaların da əhəmiyyətli yer tutmasını sübuta yetirmək;

---

11 Muradov V. Qarabağ bölgəsinin xalçaçılıq tarixi. Bakı:"Elm" – 2015. s.546,551.
12 Abdulova G. Qarabağ xalçaları. [kataloq] Bakı: "Ziya". 2013.s.8.

- Qarabağ xalçalarında əksini tapan Şərq poeziyasının motivləri olan nümunələrin bədii xüsusiyyətlərini üzə çıxarmaq;

- Klassik ədəbiyyat, folklor və Xalq qəhrəmanlarının obrazlarını özündə əks etdirən Qarabağ xalça nümunələrinin özünəməxsus cizgilərini aşkarlamaq;

- Sovet dövründə yaradılmış və Qarabağ xalçalarında əksini tapmış inqilab rəhbərlərinin obrazlarının bədii həllini göstərmək;

- Qarabağ xalçalarında ticarət adamlarının, siyasi xadimlərin və səyahətçilərin Azərbaycana gələrkən gətirdikləri əsir-ətiqlərin üzərindəki rəsmlərin təhlilini aparmaq;

- XIX yüzilliyin sonlarında Qarabağda, Şuşada xalçaçılıq sənətində meydana gələn yeni təsvirli və süjetli çeşnilərin bədii xüsusiyyətlərini üzə çıxarmaq;

- Qarabağda toxunan ov mövzulu xalçaların kompozisiya köklərini üzə çıxarmaq;

- Avropadan gələn müxtəlif əşyaların tekstil məmulatların, şalların, mücrülərin üzərində əks olunmuş mövzuların, o cümlədən flaminqo rəqsi, Venesiya gəzintiləri, məhəbbət mövzusunu özündə əks etdirən lirik poetik mövzuların, Qarabağ xalçalarında əksini tapmış digər süjetlərin sənətşünaslıq baxımından mahiyyətini araşdırıb, onların bədii təhlilini vermək.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın predmetini Qarabağda XIX-XXI əsrin əvvəllərinə qədər xalq ustaları tərəfindən yaradılmış müxtəlif mövzuları özündə əks etdirən süjetli xalçaların bədii xüsusiyyətlərinin üzə çıxarılması təşkil edir.

Tədqiqatın obyektini Azərbaycanın müxtəlif bölgələrindən toplanmış Qarabağ məktəbinin təsvirli və süjetli xalçaları təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasları müasir sənətşünaslıq elminin sistemli-kompleks şəkilində elmi yanaşma, semiotik təhlil metodları təşkil edir. Həmçinin tədqiqat zamanı bölgələr üzrə xalça məktəblərinin yaranmasında tarixin daha keçmiş dövrünə aid xalça nümunələrinin əlaqəli və müqayisəli təhlili kimi elmi metodlardan istifadə edilib.

Dissertasiyada metodoloji əsaslar kimi müəyyənləşən tarixi aspektdən bədii yanaşma üsuluna üstünlük verilib. Dissertasiya üzərində iş zamanı əyani materialın

əhatəli şəkildə təhlil olunması, xalçaların texniki və bədii xüsusiyyətlərinin öyrənilməsi baxımdan tədqiqatda kompleksli metoddan istifadə edilib.

**Tədqiqatın coğrafi və xronoloji hüdudları.** Dissertasiyanın coğrafi sərhədləri Azərbaycanın yalnız bir bölgəsi – Qarabağ ərazisi ilə məhdudlaşır. Tədqiqatın xronoloji hüdudları əsasən XIX və XXI əsrləri əhatə edir. Eyni zamanda Qarabağın süjetli xalçaları mövzularının orta əsrlərə aid olduğunu dərindən tədqiq etmək üçün təbii ki, orta əsrə aid Firdovsinin "Şahnamə" əsərindən götürülən süjetlə əlaqədar mövzunun təhlilindən istifadə edilib. Bundan əlavə XV-XVII əsrlərdə Qarabağda toxunmuş süjetli iki xalça haqqında da məlumat verilib. Bunlardan biri XV əsrə aid Qarabağda toxunmuş "Əjdaha ilə simurqun döyüşü" adlı xalça, digəri isə XVII əsrə aid edilən, Səfəvi saray mühitini özündə əks etdirən xovlu xalçadır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- İlk dəfə olaraq Azərbaycanın Qarabağ bölgəsinin süjetli xalça məmulatlarının dekorunun inkişaf prinsipləri kompleks şəkildə əhatəli tədqiq olunub;

- Tədqiqata Qarabağın süjetli xalçalarının inkişafına və onun ideya tutumuna təsir göstərən əsas amilləri aşkara çıxaran geniş material cəlb olunub;

- Respublika ərazisində son illərdə yerli əhali tərəfindən qorunub-saxlanılan, o cümlədən Qarabağdan qaçqın düşmüş insanların özləri ilə gətirdikləri süjetli xalça məmulatları ilk dəfə olaraq sənətşünaslıq baxımından təhlil edilib;

- Əldə olunmuş mövcud faktiki materialın ümumiləşdirilməsi nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın Qarabağ bölgəsində toxunan süjetli xalçalarda Aralıq dənizi, Avropa ölkələrinin, o cümlədən İspaniya və İtaliya mühitinin süjetləri əks olunub;

- Xalçalar üzərində təsvir olunan yad motivlər yerli ənənələrlə birlikdə tətbiq edilir. Həmin xalçalarda qara, ya da qırmızı fonda sırf Qarabağa aid qızılgül qönçəsi, budaq, dəstə-gül və yarpaqlar təsvir olunub;

- Bədii ənənələrdən irəli gələrək insan və heyvan rəsmləri həndəsiləşmiş və ya stilizə edilmiş formalarda verilib;

- Süjetli motivlərin yaranması ilə xalçaların öz müstəvisini dəyişməsi və ayaq altı döşənəcəklərindən divar pannolarına çevrilməsi müəyyən olunub.

- Süjetlərin xalça üzərində əks edilməsi eyni zamanda rəngkarlıqda olduğu kimi, rəng keçidlərinin də xalça üzərində yaranmasına səbəb olmuşdur ki, bu da klassik Qarabağ xalçalarının rəng tərtibatının pozulmasına gətirib çıxarmışdır.

- Qarabağda süjetli xalçaların XX əsrin axırı, XXI əsrin əvvəlinə aid nümunələrində süni boyaqların tətbiqi nəticəsində əbrəşlərin rəng uyğunsuzluqlarının və solğun naxışların xalçanın ümumi bədii rəng koloritinə göstərdiyi mənfi təsirin olması müəyyənləşdirilib;

- Qarabağ xalçaçılarının digər yerlərdəki təsvirləri köçürən zaman yerli ənənələrə uyğun olaraq çox zaman rəsmlərin şərti dekorativliyini saxlamaq bacarığı aşkar edilmişdi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi Azərbaycanda xalça sənəti vasitəsilə dekorativ-tətbiqi sənət tariximizin nəzəri tutumunun zənginləşməsinə, ictimai-mədəni həyatın bir çox sahələrində tarixən təzahür edən xalça sənəti nümunələrinin süjetli növünə xas texnoloji, bədii inkişaf xüsusiyyətlərini daha əhatəli izləməyə imkan verir.

Tədqiqata cəlb edilmiş bir çox süjetli xalça məmulatların eyni zamanda Azərbaycan dekorativ-tətbiqi sənət tarixinə yeni faktlar bəxş etməsini də onun praktiki əhəmiyyəti hesab etmək olar. Dissertasiyada yer almış faktların və nəticədə əldə olunan qənaətlərin ümumi tutumu onun bu sahə üzrə gələcək nəzəri və estetik tədqiqatlarda qaynaq kimi istifadəsini gərəkli edir.

Bundan əlavə, tədqiqatın nəticələri müasir dekorativ-tətbiqi sənət ustalarına, respublikanın el sənəti sahələrinin inkişafı və bərpası məsələləri ilə bağlı varisliyin daha dərindən dərkinə və mənimsəməsinə kömək edə bilər. Tədqiqatın materialları onun bədii təmayüllü orta və ali məktəb tələbələri üçün dərs vəsaiti kimi istifadəsinə imkan verir.

Bununla yanaşı, tədqiqatın materialları muzey işçiləri, eləcə də, sənət ekspertlərinə – kolleksiyaçılara populyar ədəbiyyat mənbəyi kimi də xidmət göstərə biləcək elmi informasiya malikdir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta təhsil ocaqlarında, sənətşünaslıq, dekorativ-tətbiqi sənət sahələrinin bütün ixtisasları üzrə təhsil alan tələbələrə "Azərbaycan incəsənəti tarixi", "Dekorativ-tətbiqi sənət tarixi", "Azərbaycan xalça sənəti", "Ornament tarixi" fənlərinin tədrisi zamanı köməkçi dərs vəsaiti kimi istifadə oluna bilər. Dissertasiya həmçinin etnoqrafların, tarixçi və sənətşünasların yararlana biləcək dəyərli vasitədir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilib. Mövzu üzrə axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilib. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 8 məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, iki fəsil, dörd yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın məzmunu kompüter yığımının 111 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYA İŞİNİN MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekt və predmeti, problemin tədqiq olunma dərəcəsi, məqsəd və vəzifələri, tədqiqatın predmeti və obyekti, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın **I Fəsli - "Qarabağın xalçaçılıq ənənələrində süjetli xalçaların yeri"** adlandırılır və iki yarımfəsildən ibarətdir. Burada XIX əsr və XXI əsrin əvvəlinə aid böyük tarixi dövrü əhatə edən Azərbaycan xalça sənətinin inkişaf mərhələləri, Qarabağ xalça məktəbində süjetli xalçaların yaranması haqda ümumi məlumat verilir.

**"Qarabağın süjetli xalçalarının təşəkkülü, onların tədqiqi və təbliğində xalça tədqiqatçıların rolu"** adlanan birinci yarımfəsildə Qarabağın süjetli xalçalarının inkişaf mərhələsi və xalça sənəti ilə məşğul olan sənətşünasların Qarabağın süjetli xalçaları barədə olan təhqiqatları qısaca izlənilir.

Bu yarımfəsildə L.Kərimovun, A.Əliyevanın, N.Abdullayevanın, R.Əfəndiyevin, R.Tağıyevanın, K.Əliyevanın, V.Muradovun, G.Abdulovanın müəllifi olduqları elmi əsərlərə müraciət edilmişdir. Adı qeyd olunan tədqiqatçı alimlərin Azərbaycan xalçaları, o cümlədən Qarabağın süjetli xalçaları barədə olan araşdırmalarına istinad edərək, "Qarabağın süjetli xalçaları" mövzusunda olan dissertasiya işinin araşdırılmasında bu xalçaların tarixi kökləri barədə əsaslı materiallar toplanmışdır.

Azərbaycan bu gün multikultural bir ölkə olmaqla bərabər, eyni zamanda dünyada sənətkarlığın mərkəzi kimi də tanınır. Tarixçi və səyyah Əl-Müqəddəsi "Hüdüd-Əl-Aləm" əsərində (X əsr) Azərbaycanda toxunan parçalar, zililər, xalçalar haqqında danışarkən Muğanda toxunan çuvallar və palazlar haqqında da məlumat verir. Azərbaycanın Bərdə şəhərini və bazarlarda satılan qiymətli əşyaları təsnif edərkən yazır: "...Bu bazarlarda ipək və geyim şeyləri satılır. Burada toxunan xalçaların misli yoxdur" [13].

XVIII-XIX əsrlərə qədər evlərin bədii tərtibatında xalça və divar rəsmləri mühüm əhəmiyyət daşıyırmış. Belə bir tərtibat təbii ki, bütün ailələrin evlərinə nəsib olmurdu. Buna görə də vaxtı ilə yalnız döşəmə üçün nəzərdə tutulan xalı-xalçalar divar rəsmlərinin yerini tutmağa başlayıb. Son zamanlara qədər toxunmuş Qarabağ xalçalarının muzeylərdə olan nümunələri içərisində ən çox divar xalısı kimi istifadə edilən əsərlərdən - "Atlı-itli" və xovsuz "Şəddə"lərin nümunələri kifayət qədərdir. Artıq XX əsrin əvvəllərinə aid süjetli xalçalar sırasında "Rüstəm və Söhrab" adlı xalçalara da rast gəlinir. XX əsrin sonları, XXI əsrin əvvəllərində Qarabağda saysız-hesabsız süjetli divar xalçaları da toxunmuşdur. Bu dövr ərzində qarabağlıların evlərinin interyerində belə xalçalar həddən artıq dəbdə olmuşdur. Halbuki, əvvəllər Qarabağ xalçaları içərisində divar xalçaları kimi istifadə edilən ən yayılmış kompozisiyalar "Baxçada güllər" və "Dibçəkdə güllər" olmuşlar. Araşdırmalar bu xalçaların təbii boyaqlarla boyanmasını sübuta yetirir. Lakin, sonrakı zaman kəsiyində toxunan xalçaların əksəriyyətinin iplərinin süni, anilin rəngləri ilə boyanması nəticəsində Qarabağ xalçaları özünəməxsus gözəl, harmonik rəng

[13] Kərimov L. Azərbaycan xalçası I cild. Bakı: Leninqrad-1961.s.2.

qammasını və bunun nəticəsi olaraq demək olar ki, öz əvvəlki şöhrətini itirmişlər. Onun yerinə keçmişdə Qarabağda istifadə edilməyən və xalçalara xələl gətirən, yalnız tikmə sənətində işlədilən zəhərli yaşıl və çəhrayı rənglər bu xalçalarda tətbiq olunurdu[14].

Tədqiqat işində isə yuxarıda qeyd olunduğu kimi L.Kərimovun, N.Əliyevanın, A.Əliyevanın, R.Əfəndiyevin, R.Tağıyevanın, K.Əliyevanın, V.Muradovun və G.Abdulovanın kitablarında Qarabağın bir neçə süjetli xalçalarına rast gəlinir ki, dissertasiyada onlara diqqət yetirilmişdir. Elmi əsərlərdə yer almış Qarabağın süjetli xalçalarından "Atlı-itli", "Rüstəm və Söhrab", "Yusif və Züleyxa", "Kef çəkən əyanlar" kimi nümunələrə diqqət yetirmək istədik.

Məlum olduğu kimi, hələ XX əsrin 60-70-ci illərində Azərbaycanın mürəkkəb süjetli xalçaları sənətşünasların diqqətini cəlb etmişdir. Bu baxımdan R.Tağıyevanın "Azərbaycanın Süjetli Xalçaları" adlı monoqrafiyası xüsusi yer tutur. Məlumdur ki, R.Tağıyeva uzun illər Azərbaycan Xalça Muzeyinin direktoru olmuşdur. Bu müddət ərzində, O muzeyin fondunda olan külli miqdarda süjetli xalçaları dərindən tədqiq edərək, samballı monoqrafik bir əsər yaratmışdır. O, öz monoqrafiyasında süjetli xalçaları altı dövrə bölür:

1) Heyvanların və ovçuların sadə fiqurları təsvir edilmiş ən qədim xalça və parçalar;
2) Əkinçiliyin inkişaf etdiyi feodal sosial-iqtisadi formasiyanın bərqərar olduğu dövr xalaçları;
3) Orta əsrlərin erkən klassik dövründən əvvəlki dövrə. Bu dövr Həyatın daha realist tərzdə əks edilməsi ilə, xalçaçılıq sənətinin miniatür rəngkarlığına yaxınlaşması ilə fərqlənmisdir;
4) XVI əsrin klassik dövrü;
5) XVII-XVIII əsrləri əhatə edən dövrə. Bu dövrdə Şimali Azərbaycanda yerli xalçaçılıq məktəbləri mühüm rol oynamağa başlayır və yeni üslub cərəyanları təşəkkül tapır;

[14] Алиева А. Ворсовые ковры Азербайджана XIX-начала XX века. Баку: Элм-1987. s.17.

6) Altıncı dövrə isə XIX əsrin axırları, XX əsrin əvvəllərində hazırlanan süjetli-tematik xalçalar aid edilir. Bu monoqrafiyada müəllif əsasən “Ovçuluq”, “Dörd fəsil”, “Ağaclı”, “Mehrablı”, “Leyli və Məcnun”, “Xosrov və Şirin”, “Yusif və Züleyxa”, “Şeyx Sənan” kimi süjetli xalçaların təsvir və təhlilini verir.

Müəllif, həmin kitabda eyni zamanda Qarabağ xalçalarını da diqqətlə izləyir. Qarabağda XIX əsrin axırlarında “Atlı-itli”, “İtli-pişikli”, “Marallı-ceyranlı” xalçalar haqqında da öz mülahizələrini qeyd edir[15].

Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən işğal olunmuş bölgələri tərk etmiş qaçqınların evlərində bu gün də tədqiqata cəlb olunmamış yüzlərlə, bəlkə də minlərlə süjetli divar xalçaları saxlanılır.

**“Qarabağın xovsuz xalça və xalça məmulatlarında süjetli və zoomorf təsvirlər”** adlanan ikinci yarımfəsil Qarabağın xovsuz süjetli və zoomorf təsvirli xalça və xalça məmulatlarının təsvir və təhlilinə həsr olunub.

Xovsuz xalçalar ilk olaraq yaranıb, toxunduğu üçün dissertasiyada da bu yarımfəsildə üzərində quş və heyvan təsvirləri olan süjetli xovsuz xalçalarına “Vərni”, “Zili”, “Şəddə”, o cümlədən, “Çul”, “Məfrəş”, “Xurcun” kimi xalça məmulatlarına yer verilib.

Süjetli və zoomorf təsvirli xovsuz xalça və xalça məmulatlarının bədii, texniki xüsusiyyətləri şərh edilir. Bunun üçün ilk olaraq Qarabağda yaşayan ayrı-ayrı Elat-tərəkəmə tayfalarının əsrlər boyu toxuduqları xalçaların yaranmasının əsas səbəblərini şərh etməklə bərabər, eyni zamanda onların üzərində olan heyvan, quş təsvirlərinin yaranma mühiti araşdırılıb.

Azərbaycan xalçaları öz bədii xüsusiyyətlərinə görə adətən iki böyük qrupa bölünür: ornamental və süjetli xalçalar.

Xalçaların bədii xüsusiyyəti və məzmunu, ilk olaraq onları bəzəyən ornamentlərdən asılıdır, çünki ornament tətbiq olunduğu sənət nümunəsini bəzəməklə bərabər onun məzmunu da üzə çıxarır. Azərbaycan xalçalarının bəzək elementləri qədim zamanlardan bu günə kimi ideya-bədii əhəmiyyətə malik olmuşdur.

---

[15] Тагиева Р. Сюжетные Ковры Азербайджана. Баку: Ишыг-1988. s. 51,53.

Bu baxımdan, qeyd etmək olar ki, xovsuz xalçalarda arabir nisbətən real səpgidə toxunmuş insan və heyvan fiqurlarına da rast gəlirik. Belə xovsuz xalçalar sırasına “Şəddə”, “Zili”, “Vərni” və s. xalçaları da daxil edə bilərik[16].

Qarabağ xalçalarının, xüsusən xovsuzların təsvirləri və süjetləri öz orijinallığına görə bənzərsizdir. Bu xovsuz süjetli xalçalar sırasında üfüqi simmetriya əsasında qurulmuş və mövzunun dekorativ cəhətdən mənimsənilməsində əsl xalq manerasında həll edilmişlər. Bu qədim süjetli-xovsuz “Şəddə” xalçaları kompozisiya cəhətdən üfüqi simmetriya üzərində qurulur və paralel bölgüdə birtipli insan və heyvan fiqurcuqları ilə intəhasız təkrar edilir[17].

Onların ən gözəl nümunələri Azərbaycan Xalça Muzeyində, Milli İncəsənət Muzeyində və Milli Tarix Muzeyində saxlanılır. Lakin, bu nümunələr yalnız XIX əsrin axırı, XX əsrin əvvəllərinə aiddir. Onların daha qədim, yəni XVIII əsrə aid olan nümunələri Vaşinqtonun Tekstil Muzeyində, Kiyevin İncəsənət Muzeyində və Moskvanın Şərq Xalqlarının İncəsənəti Muzeyində saxlanılır. Ümumiyyətlə tez-tez köçüb, yerini dəyişən Qarabağın Elat-tərəkəmələri ənənəvi olaraq nəqliyyat vasitəsi kimi dəvələrdən, atlardan və ulaqlardan istifadə edirdilər. Təsərrüfatda istifadə edilən bütün əşyalar yorğan-döşək, qazan və s. məfrəşlərə yığılıb, atların, dəvələrin üzərinə qoyulub daşınırdı. Bu baxımdan Bərdənin kəndlərində yaşayan Elat tərəkəmələri külli miqdarda xovsuz xalçalar toxunmuşdur ki, onlar da həmin köçmə zamanı dəvə karvanlarının  təsvirini özündə əks etdirmişlər. Belə təsvirli xovsuz xalçalar xalq arasında “Şəddə” adı ilə məşhurdur. Bir qayda olaraq şəddələrin yerliyi palaz toxunuşlu olur və yerliyin rənglərində iki rəngdən istifadə edilir. Şəddələrin toxunuşunda ümumiyyətlə tünd qırmızı, tünd sürməyi və ya tünd qəhvəyi rənglərdən istifadə edilir. Xalçanın arasahəsi qırmızı rəngdə olub, onun üzərində üfüqi istiqamətdə bir-birinin ardınca düzülən yaşıl, ağ, qara, sarı, mavi, qəhvəyi və s. rəngdə olan dəvələr təsvir edilirdi. Dəvələr ard-arda düzülərək, boğazlarındakı bağlar da bir-birinə möhkəm bağlanırdı ki, bu da karvan təsəvvürü yaradırdı. Başqa sözlə şəddələrdəki dəvələr xalq təfəkkürünün təsvir vasitəsi olan, tamamilə stilizə edilərək

[16] Əfəndiyev R. Azərbaycan Xalq Sənəti. Bakı: İşıq, 1984. s.43,68.
[17] Алиева К. Тебризская Ковровая Школа XVI-XVII в. Баку:  “ELM”-1999. s.53.

hündür boğazlı, nazik ayaqlı, bellərinin hürgücləri isə bir və ya ikidən ibarət olurdu. Bu karvanlar xovsuz xalçanın enində iki, üç, bəzən dörd sırada verilirdi. Dəvələrin rəngləri bir-birindən fərqli olduğu üçün onların üzərinə salınan çul və ya palanların da rəngi dəyişik olurdu ki, bu da xalçanın ümumi kompozisiyasına xüsusi rəngarənglik verirdi. Məs., ağ rəngli dəvənin üzərindəki örtük qırmızı, sarı rəngli dəvənin üzərindəki örtük yaşıl və ya göy, qəhvəyi rəngli dəvənin üzərindəki örtük isə sarı rəngdə olurdu. İstər dəvələrin arxasınca bir-birinin düzülüşü, istər onların bədii tərtibatı statik olan bütün fiqurlara xüsusi bir dinamika verirdi. Sanki onlar bir-birinin arxasınca hərəkət edirlər. Sahədəki bu dinamikliyi arasahənin daxilindən içəriyə doğru istiqamətlənən, bir-birinin yanında düzülmüş darağa və ya üçbucağa oxşar və xalq arasında "gədirgə" adlanan elementlər daha da qüvvətləndirir.

Süjetli-tematik xalçaların spesifik bədii hadisə kimi inkişafı və ideya-bədii xüsusiyyətlərinin təkamül tarixi dekorativ-tətbiqi sənətdə ovçu məişətinin qədim dövrlərindən yaranmışdır və əkinçilik kultunun təkamül tarixindən başlamış mədəniyyətin inkişaf formaları dövrünədək, xüsusən klassik şərq ədəbiyyatının parlaq inkişafınadək süjetli-tematik komplekslərin genetik xarakteri meydana gəlmə ardıcıllığı ilə əlaqədardır. Bütün bu süjet motivlərinin təkamüllünün təhlili göstərmişdir ki, onların hamısı semantik müxtəlifliyinə baxmayaraq, xalqın dünyagörüşünü və onun bədii inkişaf dərəcəsini əks etdirir. Bu isə dekorativ-tətbiqi sənətdə üstün başlanğıc olaraq qalmışdır.

Xalçalar keçmişdə kult və totem əhəmiyyəti olan ünsürlərlə zəngin bəzədilmişlər. Dördbucaq şəkilli medalyonlarda arasahənin künclərində rəngarəng quyruqları olan al-əlvan xoruzlar səhərin açılmasının, dünyanın nura qərq olmasının, yerin təntənəsinin rəmzi olaraq təsvir olunmuşdur. Şahinlərin fiqurları "S" şəkilli fiqurlarla bəzənmişdir. Bu element suyun rəmzi hesab olunur [18].

Qarabağ çullarının əsas fonları qara rəngdə olur. Onlar zili toxunuşlu olub, haşiyələrində ya romblar, ya da ki aşıq təsvirləri verilir. Arasahənin yuxarı hissəsini kiçik çəmən gülləri və üç ləçəkli çiçək formalaşdırmışdır. Quşların rənginə gəldikdə isə onların bədii tərtibatında qızılı, oxra, yaşıl, sarı, qırmızı, ağ rənglərdən istifadə

[18] Тагиева Р. Сюжетные Ковры Азербайджана. Баку: Ишыг -1988. s.51, 53.

edilib. Quşların görünüşü monumentaldır. Onların kəkilləri quşlara xüsusi bir əzəmətlik qatır və sanki bu quşlar özlərini bayramda nümayiş etdirirlər. Qara, bəzən də sarı saçaqlar misilsiz gözəlliyi ilə seçilən bu çullara xüsusi bir bədii görünüş verir.

Ümumiyyətlə, Qarabağın istər xovlu, istərsə də xovsuz xalçalarında heyvan, quş təsvirlərinə tez-tez rast gəlinir.

Xurcunlar da qədim xalça məmulatlarının ilk nümunələri sırasına aid edilə bilər. Məlum olduğu kimi, məişət həyatının demək olar ki, bütün sahələrində xalça və xalça məmulatlarından istifadə edən qədim köçəri tayfalar xurcunlardan da geniş istifadə etmişlər. Digər xalça nümunələrində olduğu kimi, xurcunlarda da ornament və rəng tərtibatının zənginliyinə diqqət yetirilirdi. Demək olar ki, xalça və xalça məmulatları içərisində xüsusən xurcunların gözəgəlimliliyinə daha çox önəm verilirdi, çünki bu məmulatlar səfərlərdə daim insanlarla yanaşı olurdu. Uzaq məsafələri ayaqla və ya dəvə, ulaq, at kimi heyvanlarla uzun müddətə qət edən insanlar əşyalarını məfrəşlərdə, xurcunlarda daşıyırdılar. Bu vasitə ilə də qadınların toxuduqları əl işlərini, onların məharətini sərgiləməyə imkan yaranırdı. Beləliklə, bitki və çiçək elementləri ilə yanaşı, heyvan və insan rəsmləri də şərti-dekorativ şəkildə toxunan xalçalarda əks olunurdu ki, bu da tədricən süjetli xalçaların yaranmasına təkan verdi.

Qarabağda əsrlər boyu toxunan xovsuz xalçalar əsasən Elat-tərəkəmə tayfaları və oturaq kənd əhalisi arasında yayılaraq, mühüm utilitar əhəmiyyət daşımışdır. Elat-tərəkəmələr sırf olaraq qoyunçuluqla məşğul olduğu halda, oturaq kənd əhalisinin bir hissəsi bağçılıq, bostançılıqla, bir hissəsi isə yaylaq-qışlaq həyatı keçirdiyi üçün həyat şəraiti ilə əlaqədar olaraq saysız-hesabsız xovsuz xalça məmulatları toxumuşlar ki, onları da köç zamanı əşyaların daşınmasında istifadə olunan məfrəşlər, böyük ölçülü xurcunlar, əsasən də çullardan ibarətdir ki, bu məmulatların üzərində həndəsi naxışlarla bərabər saysız-hesabsız quş, heyvan təsvirləri verilir ki, bunlar da həmin məmulatların üzərində ayrı-ayrı üfüqi zolaqları bəzəyərək, bir-birinin arxasınca düzülmüş halda təsvir edirlər. Quş və heyvanların bir-birinin arxasınca təsvir olunmaları bir növ ritm, dinamika yaratmaqla bərabər, həm də qismən hərəkət edən heyvan sürüsünü, quş qatarını və ya ev heyvanlarından olan xoruz, Həştərxan toyuğu kimi ev quşlarının təsvirlərini özündə əks etdirir ki, onlar da bir növ süjetə bənzəyir.

**II Fəsil – “Qarabağın süjetli xovlu xalçalarının bədii xüsusiyyətləri”** adlandırılmışdır və iki yarımfəsildən ibarətdir. Burada Qarabağın süjetli və klassik heyvan, quş təsvirli xovlu xalçalarının, klassik bədii ədəbiyyat və tarixi şəxsiyyətlərin obrazları əks olunmuş xalçalar yer almışdır.

Bu fəslin **“Qarabağın süjetli və zoomorf təsvirli xovlu xalçalarının bədii xüsusiyyətləri”** adlanan birinci yarımfəsli Qarabağın klassik süjetli heyvan, quş təsvirli xovlu xalçalarına həsr olunub.

**II fəslin I yarımfəslində** Qarabağın klassik toxunuşlu “Atlı-itlli” xalçaları da daxil edilmişdir ki, bu xalçaların dünya muzeylərində iki yüzə yaxın nümunəsi saxlanmaqdadır.

Bu yarımfəsildə həmçinin Qarabağda əsrlər boyu toxunan digər heyvan təsvirləri ilə bərabər, xalçalarda təkrar edilən süjetlərdən “Marallı”, “Pələngli”, “Pişikli”, “Quşlu” xalçalar da daxil edilib. Onların hər birinin yaranma tarixi, bədii xüsusiyyətləri haqqında geniş, hərtərəfli məlumat verilib. Beləliklə, bu fəsil daha geniş bir fəsil olub, dissertasiyanın əsasını təşkil etməklə bərabər, Qarabağın ornamental xalçaları ilə yanaşı onların da varlığı bu bölgənin süjetli xalçaların mərkəzi olduğunu sübut etməyə imkan verir.

“Atlı-itli” xalçalarında at və itlərin kompozisiyada hərəkət edən yan görünüşlü rəsmləri, atların başı aşağı və ayaq üstə, itlərin başları arxaya baxan oturmuş vəziyyətdə olan təsvirləri əksər Qarabağ xalçalarında eynidir. Bu da onu göstərir ki, vaxtı ilə hansı bir etalon at və it təsvirindən götürülmüş, xalça sənətində bir toxucu tərəfindən tətbiq edilmiş və digər yaradılan nümunələrdə də kompozisiyanın quruluşunu dəyişsələr belə, heyvanların görünüşünü saxlamışlar.

Bu kompozisiyasını özündə əks etdirən Qarabağ xalçalarının saysız-hesabsız nümunələri mövcuddur ki, onların da 90%-i demək olar ki, bir-birinin təkrarıdır. Lakin, 2016-cı ilin payız ayında İçəri şəhər də bir satış məntəqəsində gördüyümüz nümunədə isə “Atlı-itli” xalçası nisbətən fərqli kompozisiyaya malikdir. Belə ki, Qarabağın müxtəlif kəndlərində toxunan “Atlı-itli” xalçaların kompozisiyasında bir qayda olaraq atların təsviri şaquli istiqamətdə, üst tərəfdə, itlərin təsviri alt tərəfdə verilir. Qəbul olunmuş qaydaya görə atların sayı ikidən beşə qədər ola bilir. İtlər isə

xalçanın arasahəsinin aşağı hissəsində üfüqi istiqamətdə oturmuş vəziyyətdə təsvir edilərək, oturub arxaya çevrilmiş şəkildə təsvir olunur. Qarabağda toxunan və sırf xalq yaradıcılığını özündə əks etdirən heyvan təsvirli xalçalar sırasına şir təsvirli xalçaları da daxil etmək lazımdır. Şir təsvirli xalçaların saysız-hesabsız nümunələri mövcuddur və bu xalçalar sevilə-sevilə bu günə qədər Qarabağ qaçqınlarının evlərini, komalarını bəzəyir.

Şir təsvirli xalçalarda əksər hallarda şirlər simmetrik olaraq bir-birinə üzbəüz dayanmış, sanki poza verərək rəsm çəkdirirlərmiş kimi təsvir ediliblər. Onların istər baş, bədən, istərsə də ayaq hissələrinin təsviri qrotesklidir. Əl və ayaqları insan əlinə və ayağına bənzədilir. Saqqal tükləri isə o qədər dəbdəbəli təsvir edilir ki, sanki həqiqətən şirlərin hökmdar olduğunu və dəbdəbəli geyimdə rəsm çəkdirdiklərini xalçaçı usta bir daha nəzərə çatdırmaq istəyir. Kompozisiyanı hansı formada qurursa qursun, hansı rənglərdən istifadə edirsə etsin, bu xalçaları toxuyan usta onun Qarabağa aid olduğunu mütləq öz damğası yəni, hər hansı bir Qarabağa xas naxışı və ya Qarabağın naxışı olan qızılgül rəsmini orada toxumaqla ifadə etmişdir.

Ümumiyyətlə Türk xalqlarında aslan motivləri xüsusi yer tutur. Bunu qala divarlarının, şah taxtalarının, sarayların, qapıların üzərindəki aslan təsvirləri ilə bəzədilmiş işləmələr sübuta yetirir. Qədim inanclara görə bu təsvirlər sahib olduğu məkanı və oranın sakinlərini qorumaq gücünə malikdir. Sasanilər, Qəznəvilər və Səlcuqların bayraqlarında aslan fiqurları ululuğun, hakimiyyətin simvoludur. Qarabağ xalçalarında daha çox təsviri yer alan aslan fiqurlarına Türk, Bardız xalçalarında da tez-tez rast gəlinir [19].

Qarabağda toxunan süjetli xalçaların ən çox nümunələrini “Marallı” xalçalar təşkil edir. Bütün meşə heyvanları içərisində öz gözəlliyinə görə seçilən bu heyvan Azərbaycan ədəbiyyatında, incəsənətində gözəlliyin və məhəbbətin simvolu kimi sevilmişdir.

Bu fəslin **“Klassik bədii ədəbiyyat və tarixi şəxsiyyətlərin obrazları Qarabağ xalçalarında”** adlanan **ikinci yarımfəslində** klassik bədii ədəbiyyat və tarixi

---

[19] Yrd. Doç. Dr. Parlak T. Yrd. Doç. Dr. Ergüder A.A. Bardız kilimleri. Erzurum-2010. s.68.

şəxsiyyətlərin obrazları olan süjetli xalçaların müxtəlif nümunələri nəzərdən keçirilərək, onların təsvir və təhlili aparılır.

Bu yarımfəsildə bütövlükdə bu günə qədər Azərbaycan sənətşünasları, alimləri tərəfindən tədqiq edilmiş klassik xovlu xalçalar, o cümlədən "Rüstəm və Söhrab", "Molla Nəsrəddin", "Kef çəkən əyanlar", "Osmanlı paşaları", "Lenin və Nərimanov" kimi xalçaları bir daha tədqiqata cəlb edilib və tədqiqatçıların fikirləri ilə bərabər bu barədə olan yeni araşdırmalar da əlavə olunub. Lakin bu yarımfəsildə günümüzə qədər tədqiqata cəlb olunmamış Qarabağda həddən artıq sevilən süjetlərdən "Koroğlu və Nigar", "Qaçaq Nəbi və Həcər", "Karmen", "Klavdi və Gertrudanın görüş səhnəsi" "Kleopatranın Nildə qayıq gəzintisi", "Leninin portreti" kimi süjetli xalçalarla yanaşı, gənc qız və oğlan təsvirlərinin də romantik, lirik obrazları əsasında toxunmuş süjetli xalçalara yer verilib.

Süjet incəsənətin, ədəbiyyatın bütün sahələrini əhatə edir. Süjet dedikdə müəyyən bir hadisənin şərhi nəzərdə tutulur. Ədəbiyyatda bu nəqletmə vasitəsi ilə baş verdiyi halda, təsviri sənət əsərlərində müxtəlif texnoloji üsullardan istifadə edilərək, hər hansı şərh edilən mövzunun süjetini özündə əks etdirən təsvir vasitələrindən istifadə edilir.

Təbii ki, Azərbaycan xalçaları da müstəsnalıq təşkil etmir. Belə ki, əsrlər boyu Azərbaycanda müxtəlif süjetləri özündə əks etdirən xalı-xalçalar toxunmuşdur. Bunların arasında nağıl, mif və ədəbi əsərlərdən götürülən obrazlara daha tez-tez rast gəlinir. Bundan əlavə xalçaların süjetlərində sırf insan və fantastik heyvan, quş təsvirlərini də özündə əks etdirən mövzulara rast gəlmək mümkündür. Bu baxımdan Qarabağ xalçaları xüsusilə seçilir.

Qeyd etmək lazımdır ki, müxtəlif xalça məktəbləri içərisində süjetli xalçalar üç məktəbə aiddir. Bunlardan birincisi Təbriz xalça məktəbi, ikincisi Şirvan xalça məktəbi, üçüncüsü isə Qarabağ xalça məktəbidir.

Qarabağın süjetli xalçaları siyahısına daxil olan təhlil və təsvirini verdiyimiz "Rüstəm və Söhrab" adlı süjetli xalçaların yaranması təkcə Firdovsinin "Şahnamə" əsərindəki faciəli süjeti göstərmək məqsədini qarşısına qoymamışdır. Bu xalçanın mövzusu didaktik əhəmiyyət daşıyıb, nəsihət, əsasən də ata və oğul arasındakı ali

münasibətə həsr edilmişdir. Elə buna görə də kompozisiyada atanın oğulu öldürməsi süjeti heç zaman öz əksini tapmayıb. Əksinə, ata-oğul hər zaman birlikdə, gözəl geyimli öz yaş fərqləri ilə seçilən simalarla gül və çiçəklərlə əks olunub.

Bədii təsviri verilmiş süjetli xalça ilk dəfə V.Muradovun "Azərbaycan xalçaları Qarabağ qrupu" adlı kitabında nəşr olunub və eyni zamanda onun "Sehirli İlmələr" qaleriyasının kolleksiyasında saxlanılır. Süjet xalçanın arasahəsində yerləşdirilmişdir. Həmin bu süjetdə açıq sarı fon üzərində açılmış qızıl gülləri olan üç həyat ağacının şaquli istiqamətdə təsviri verilmişdir. Mərkəzdə yerləşən ağac arasahəni demək olar ki, iki hissəyə bölür. Bu da onu göstərir ki, burada verilən obrazların rəsmi iki dəfə təkrarlanır. Arasahənin sağında və solunda sadə xalq üslubunda işlənmiş dəmir taxt üzərində oturmuş iki kişi rəsmi verilmişdir. Hər iki təsvir öngörünüşlüdür və eyni pozadadırlar. Onların hər ikisi orta əsrlərə xas olan zirehli hərbi geyimdə təsvir olunub, başlarında dəbilqə, ayaqlarında uzunboğaz çəkmə vardır. Üz cizgiləri qrafik olub, bərəlmiş gözlər, aydın çəkilmiş bığlar və saqqal təsvirləri bu iki rəsmin bir-birindən ayrılması üçün əsas fakt kimi götürülə bilər. Yəni, obrazlardan birinin saqqalı qara, digəri isə ağdır. Onların sağ tərəfdəki kişi rəsimlərinin birində bığlar yuxarıya, sol tərəfdəki kişinin bığları aşağıya doğru istiqamətlənərək, ataya məxsus olduğunu göstərir. Onların bir ayaqları o biri ayağının altına qoyulduğu üçün demək olar ki, görünmür. Sol tərəfdə yerləşdirilmiş rəsmdə isə ayaqların istiqaməti dəyişmişdir. Xalq ustaları xalçada hər iki təsviri sadə, primitiv formada təsvir etsə belə, bu süjetin davamlı olaraq təkrar edilməsində məqsəd müharibələrdə baş verən ağır itkiləri və ən dəhşətlisi, yəni atanın oğulu öldürməsi kimi faciəni bir elegiya formasında təsvir edərək, yaddaşlarda saxlamaq olmuşdur. Bu da mövzunun aparıcı ideyası kimi qələmə vermişdir. Bu süjetlə xalq ustaları ata və oğulun ruhlarının cənnətdə birgə olması arzusunu da cənnət ağacı vasitəsi ilə əks etdirmək istəmişlər. Bu baxımdan da onları cənnət ağacının iki yanında əks etmişlər. Həyatda öz oğlunun yalnız ölümünü görən Rüstəm bu xalçada da öz oğlunun üzünü görmür. Onları bir-birindən həyat ağacı ayırır. Xalq ustaları Rüstəm və Söhrabın sağ əllərində qanlı qılınc təsvirini də səbəbsiz olaraq verməmişlər. Bu qılınclar simvol olaraq ölüm rəmzi kimi kompozisiyada iştirak edirlər. Xalçadakı insan rəsmlərinin qrotesklə

olması onların üz ifadəsinin daha çox uşaq rəsminə bənzəməsi bir daha sübut edir ki, bu süjetlər xalq yaradıcılığını əks etdirir. Bu baxımdan xalçanın mərkəzində arasahənin süjetlərinin yerləşdiyi yerin daha kiçik olması sanki insan təsvirlərini bir az da sıxılmış və kiçilmiş formada təzahür etməsinə səbəb olmuşdur. Lakin bütün bu insan təsvirlərinin sadə bir az da gülünc traktovkasına baxmayaraq, süjetin faciəli ata oğul mövzusu Qarabağın bütün xalçaçıları arasında ən çox yayılmış bir xalça mövzularından birinə çevrilməyinə imkan yaratmışdır. Hazırkı xalçanın arasahəsindəki obraz təsvirlərinin sadəliyindən fərqli olaraq onun haşiyə qurşağının bədii tərtibatı olduqca mükəmməl, savadlı olub və zəngin naxışlarla bəzənmişdir. Süjeti bir enli ana haşiyə və iki mədaxil əhatə edir. Burada qırmızı yerlik üzərində ağ, qəhvəyi, sarı, yaşıl rəngli nəbati gül motivləri, yarpaqlar və kiçik uçan quşu xatırladan, əslində isə iki islimidən əmələ gələn göllər bir-birinin arxasınca düzülərək ritmik bir kompozisiya yaratmışdır. Bir-birinin arxasınca düzülüb təkrarlanan kiçik ağ yarpaq və güllərlə formalaşan mədaxillər daha dinamik olub, ümumi kompozisiyanı zənginləşdirir. Xalçaçı usta arasahə kompozisiyasını daha təmtəraqlı etmək üçün xalçanın sağ və solunda, yan tərəflərdə cağa və yaxud da diliyə bənzər naxışlar vermişdir. XIX əsrin əvvəlinə aid olan bu xalça yun və xovludur. Xalça divar xalçası olub, bir növ panno xarakteri daşıdığı üçün onun eni boyuna görə az olub, fiqurlar üfüqi istiqamətdə yerləşdirilmişdir. Belə ki, üfüqi istiqamətdə ölçü 353 sm., şaquli istiqamətdə isə yəni en ölçüsü 153 sm-dir. Xalça simmetrik ilmə-düyün texnikasında toxunmuşdur. Xalça 30x30 sıxlıqda toxunmuşdur. Xovun hündürlüyü isə 7 mm-dir. Xalçanın səkkiz rəngdən ibarət rəng palitrası vardır: açıq palıdı, qırmızı, sarı, qara, ağ, açıq yaşıl, narıncı, çəhrayı.

Qarabağ nəyinki qədim sivilizasiya mərkəzlərindən biri kimi dünyada məşhurdur, bu bölgə eyni zamanda musiqi, bayatı, dastan mərkəzi kimi də şöhrət qazanmışdır. Bu bölgədə qədim dövrdən günümüzə qədər analar uşaqlarını laylalarla və sehrli nağıllarla yatızdırırlar. Qarabağ aşıqları qəhrəmanlıq dastanlarını toylarda, yığıncaqlarda xüsusi əzəmətlə, qoşmalar vasitəsilə söyləyir və saz musiqisi sədaları altında oxuyurdular. Qarabağda ən çox yayılan qəhrəmanlıq dastanlarından biri “Koroğlu”, digəri isə “Qaçaq Nəbi”dir ki, bu dastanlar tək xalqın qan yaddaşında

qalmamış, eyni zamanda dekorativ-tətbiqi sənət ustalarımız bu obrazları sənət əsərləri üzərində də əks etdirmişlər. Bu obrazlar Qarabağ toxucularından da yan keçməmişdir.

Qarabağın müxtəlif rayonlarından, o cümlədən Tərtərdə, Bərdə də məskunlaşmış Şuşa, Ağdam qaçqınlardan əldə etdilmiş materiallar içərisində altı "Koroğlu", bir "Qaçaq Nəbi" təsvirli xalçalar var ki, bu qəhrəmanlıq dastanlarının məzmunlarının tarixi kökləri haqqındakı bəzi mülahizələri öncədən söyləmək məqsədə uyğun olardı.

Qarabağda toy və yas məclislərində ən çox qəhrəmanlıq dastanları danışılırdı. Bu dastanlar xalq arasında geniş yayılaraq hər kəsin əzbər bildiyi dastanlardakı adlar da Qarabağda doğulan uşaqlara verilirdi. Həmçinin Qarabağda doğulan oğlan uşaqları da klassik xalq dastanlarında olan qəhrəmanların ruhunda böyüdülürdü.

Əsl məhəbbət və qəhrəmanlıq üzərində qurulan Koroğlu dastanı Qarabağda xalçaçılar arasında geniş yayılmış və bir neçə variantda öz əksini tapmışdır.

Qarabağın süjetli xalçalarının saysız-hesabsız olduğu söylənsə, yanlış olmaz. Bunu aparılmış araşdırmalar bir daha sübuta yetirir. Halbuki, bu günə qədər Qarabağda süjetli xalçaların çox az olması haqqında fikir yayılmışdır. Lakin aparılan araşdırmalar nəticəsində aydın olur ki, Qarabağda toxunan bu xalçalar kifayət qədərdir, onlar bir-birindən kompozisiya, süjet və rəng cəhətdən fərqlənirlər.

Bütün bunlar onu deməyə imkan verir ki, Qarabağda xalçaçılığın yaranıb, inkişaf etməsinin qədim kökləri var. O ki, qaldı Qarabağın qədim təsvirli və süjetli xalçalarına, hazırkı dissertasiya mövzusu ilə əlaqədar olaraq qeyd etmək lazımdır ki, toplanılmış materiallar XIX-XX və XXI əsrin əvvəllərinə aiddir. Lakin Qarabağın süjetli xalçalarının mövzusu ən azı eradan əvvələ və bizim eranın X əsrinə aid edilir ki, bunu xalçaların və xalça məmulatlarının üzərində toxunmuş təsvirlər sübuta yetirir.

"Qarabağın süjetli xalçaları" adlı dissertasiya işi üzərində aparılmış tədqiqatın nəticələri belə göstərilir:

1. Qarabağın əsrlər boyu toxunmuş ornamental xalçalarla bərabər süjetli xalçaların da əhəmiyyətli yer tutması sübuta yetirilmişdir və ilk dəfə olaraq Azərbaycanın

Qarabağ bölgəsinin süjetli xalça və xalça məmulatlarının mövzu və kompozisiya quruluşu prinsipləri kompleks şəkildə əhatəli tədqiq olunub;

2. Qarabağda toxunan ov mövzulu xalçaların kompozisiya kökləri aşkarlanaraq tədqiqata cəlb edilib;
3. Tədqiqata cəlb olunmuş Qarabağın süjetli və təsvirli xalçalarında bədii ənənələrdən irəli gələrək insan və heyvan rəsmləri həndəsiləºmiº və ya stilizə edilmiº formada verilib;
4. Qarabağda süjetli motivlərin yaranması ilə xalçaların öz müstəvisini dəyişməsi və ayaq altı xalçalardan divar pannolarına çevrilməsi müəyyən olunub;
5. Bədii ənənələrdən irəli gələrək insan və heyvan təsvirləri həndəsiləşmiş və ya stilizə edilmiş formada verilib;
6. klassik ədəbiyyat, folklor və Xalq qəhrəmanlarının obrazlarını özündə əks etdirən Qarabağ xalça nümunələrinin özünəməxsus cizgiləri aşkarlanıb;
7. XIX yüzilliyin sonlarında Qarabağda, Şuşada xalçaçılıq sənətində meydana gələn yeni təsvirli və süjetli çeşnilərin bədii xüsusiyyətləri üzə çıxarılıb. Dissertasiyanın tədqiqinə Qarabağın süjetli xalçalarının ideya tutumuna təsir göstərən əsas amilləri aşkara çıxaran geniş material cəlb olunub; ;
8. Xalçalar üzərində yad motivlər yerli ənənələrlə birlikdə tətbiq edilir. Həmin xalçalar sırf Qarabağa aid qızılgül qönçəsi, budaq, dəstə-gül və yarpaqlarla əhatələnir. Onlar qara və ya qırmızı fonda verilib. Avropadan gətirilən müxtəlif əşyaların tekstil məmulatların, şalların, mücrülərin üzərində əks olunmuş süjetlərin, o cümlədən Flaminqo rəqsi, Venetsiya gəzintiləri, məhəbbət mövzusunu özündə əks etdirən lirik-poetik mövzuların Qarabağ xalçalarında əksini tapmış digər süjetlərin sənətşünaslıq baxımından mahiyyəti araşdırılıb, onların bədii təhlili verilib.
9. Süjetlərin xalçalarda rəngkarlıq əsərlərində olduğu kimi rəng keçidləri ilə verilməsi, klassik Qarabağ xalçalarının kompozisiya quruluşu və rəng tərtibatının pozulmasına səbəb olmuşdur;
10. Qarabağda XX əsrin axırı, XXI əsrin əvvəllərinə aid süjetli xalça nümunələrində süni boyaqların tətbiqi nəticəsində əbrəşlərin rəng

uyğunsuzluqlarının və solğun naxışların xalçanın ümumi bədii rəng koloritinə göstərdiyi mənfi təsirin olması müəyyənləşdirilib;

11. Qeyd olunan bütün bu qüsurlara baxmayaraq, Qarabağ xalçalarında yerli ənənələrə uyğun olaraq şərti dekorativliyin saxlanması bacarığı aşkar edilib;

Hazırkı dissertasiyadan belə bir son nəticəyə gəlinir ki, Təbriz xalça məktəbindən sonra ilk dəfə bu ənənə, divar xalçalarının əsası kimi Şimalı Azərbaycanda Qarabağ xalçaçıları tərəfindən yaradılmışdır. Bununla da Qarabağ xalçalarının yeni təsnifatı, yəni Qarabağın süjetli divar xalçaları istiqaməti meydana gəlmişdir. Dissertasiyada yer almış "Pişikli", "Göl qırağında marallar", "Koroğlu və Nigarın qaçış səhnəsi", "Qaçaq Nəbi və Həcər", "Kleopatra", "Karmen", "Flaminqo", "İspan rəqsləri", "Düşüncələrə qərq olmuş gənc", "Tikmə tikən qızlar", "Göldə qayıq gəzintisi", "Klavdi və Gertrudanın görüş səhnəsi" kimi süjetli xalçalar ilk dəfə hazırkı elmi işdə tədqiqata cəlb olunmuşdur.

**Dissertasiya işinin mövzusuna aid nəşr olunmuş əsərlərin siyahısı:**


1. Firdovsinin "Şahnamə" əsərinin süjeti xalça sənətində // «Memarlıq, Şəhərsalma Tarixi və Bərpası». AMEA. Toplu № 2 (10). İSSN 978-9952-8226-3-2. Bakı-2015. S.166-170.
2. Карабахские ковры с изображением ланей (Мараллы) // «Научные Исследования в Сфере Гуманитарных Наук: Открытия XXI века». Материалы IV Международной конференции 22-23 сентября 2016 года. Пятигорск-2016. С.235-243.
3. Qarabağın Əjdahalı xalçaları // «Axtarışlar». AMEA. Cild 6, № 3. ISSN 2311-8482. Naxçıvan-2016. S.216-223.
4. История создания Карабахских ковров «Атлы-Итли» и их художественные особенности // «ПОИСК». Международный Научный Журнал. Приложение Республики Казахстан. ISSN 1560-1730. № 3 / 2017. С.69-74.
5. Qarabağın xalısı var, xalçası var // «Qobustan»-sənət toplusu. 2 / 175. Yay-2017. S.21-22.

6. Qarabağ xalçalarında pələng, şir təsvirləri // «Mədəniyyət.Az». ISSN 2413-2365. May-İyun (313) 2017. S.76-77.
7. "Köroğlu" ve "Kaçak Nebi" destanlarının karakterleri Karabağ halılarında // VII. Uluslararası Türk Sanatı, Tarihi ve Folkloru Konferansı /Sanat etkinlikleri/ 11-15 Nisan (April) 2017-Bakü-Azerbaycan. S.233-238.
8. Qarabağın "Əsilzadələrin kef məclisi" adlı süjetli xalçaları // «folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix». AMEA. Axtarışlar № 4. ISSN 2311-8482. Naxçıvan-2017, Cild 7. S. 94-97.

*Арзу Низами гызы Зейналова*

## Сюжетные ковры Карабаха

Диссертация посвящена исследованию сюжетных ковров Карабаха, сотканных в XIX начале XXI в веках.

Диссертация состоит из введения, двух глав, четырех подглав, заключения и библиографического аппарата. **Во введении** обосновывается актуальность темы, определяются степень исследованности проблемы, цель и задачи, практическая значимость работы, излагается научная новизна.

Глава I – «Место сюжетных ковров в традициях карабахского ковроткачества», в которой исследуется формирование и развитие карабахских сюжетных ковров а также труды ведущих исследователей в изучении данной темы. Рассматриваются работы искусствоведов о карабахских сюжетных коврах, изучающих ковроткачество и этапы развития карабахских сюжетных ковров. Анализу подвергаются Карабахские безворсовые ковры и ковровые изделия, а также их сюжетные мотивы.

Глава II – «Художественные особенности Карабахских сюжетных ворсовых ковров» состоит из двух подглав, в которых исследуются художественные особенности карабахских классических и сюжетных ворсовых ковров XX века. Анализу подвергаются ковры посвященные классической художественной литературе и образам исторических личностей.

**В заключении** подводятся итоги исследований.

**Arzu Nizami Zeynalova**

## The plot carpets of Karabakh

The dissertation is devoted to the study of the plot carpets of Karabakh that woven at the beginning of the 19th century and the 21st centuries.

The dissertation consists of an introduction, two chapters, four sub-chapters, a conclusion and a bibliographic apparatus. In the introduction, the urgency of the topic is substantiated, the degree of investigation of the problem is determined, the purpose and objectives, the practical significance of the work, scientific novelty is stated.

Chapter I - "The place of plot carpets in the traditions of Karabakh carpet weaving", which explores the formation and development of Karabakh plot carpets and the works of leading researchers in the study of this topic. The works of art critics on the Karabakh plot carpets,studying carpet weaving and the stages of development of the Karabakh story carpets are considered. Garabagh non-pile carpets and carpet products are subject to analysis, as well as their plot motifs.

Chapter II - "Artistic features of Karabakh plot pile carpets" consists of two sub-chapters, which study the artistic features of the Karabakh classic and plot pile carpets of the 20th century. Carpets dedicated to classical fiction and images of historical personalities are subjected to analysis.

**In conclusion** the results of the research are summarized.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ

*На правах рукописи*

**АРЗУ НИЗАМИ гызы ЗЕЙНАЛОВА**

# СЮЖЕТНЫЕ КОВРЫ КАРАБАХА

**Специальность: 6218.01 – «Декоративно-прикладное искусство»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку- 2018**